**Elm və sənət məclisi**

# ORTA ƏSRLƏR ƏRƏB DÜNYASINDA TÜRKLƏR. AFŞİN




*2006-cı il dekabrın 12-də Xəzər Universitəsində fəaliyyət göstərən «Elm və sənət məclisi»nin 4-cü toplantısı oldu. Hər görüşdə auditoriyası bir az da genişlənən məclisin işində bu dəfə Xəzər Universitəsinin müəllim-tələbə heyəti ilə yanaşı, Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutundan, Bakı Dövlət Universitetindən və digər elmi qurumlardan dəvət olunmuş mütəxəssislər iştirak edirdilər.*

*Tədbiri giriş sözü ilə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı açdı.*

*«Orta əsrlərdə ərəb dünyasında türklər. Afşin» məruzəsi ilə Bakı Dövlət Universitetinin əməkdaşı, tarix elmləri namizədi Nərgiz Axundova və Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun əməkdaşı, tarix elmləri namizədi Fərda Əsədov çıxış etdilər.*

*Sonra geniş fikir mübadiləsi aparıldı.*

*Maraqlı dialoqlar və faydalı müzakirələr şəklində keçən həmin tədbirin bəzi məqamlarını oxucularımızın diqqətinə çatdırırıq.*

## «Ərəb dünyasında türklər» mövzusu çox genişdir

**Professor Hamlet İsaxanlı:**

– Əziz dostlar, bu gün bizim «Elm və sənət məclisi»nin 4-cü toplantısıdır. Hər dəfə yeni qonaqlarımız olur, məclisimiz yeniləşir, zənginləşir. Bu da təbiidir. Çünki hər dəfə yeni bir mövzunu müzakirəyə çıxarırıq və buna müvafiq də mütəxəssisləri dəvət edirik. Bu səbəbdən də iştirakçıların tərkibi həmişə təzələnir. Məclislərin hamısında iştirak edənlər də var. Yada salmaq istəyirəm ki, məclisimizin birinci toplantısında «Fəlsəfə və poeziya», ikincidə «İslamda sufilik», üçüncü toplantıda isə «Orta əsrlərdə tərcümə fəaliyyəti. «Quran»ın türkcəyə tərcümələri» mövzularını müzakirə etdik.

Bildiyiniz kimi, məqsədimiz elmin və sənətin müxtəlif maraqlı mövzularını müzakirəyə çıxarmaq, mütəxəssisləri dinləmək və fikir mübadiləsi aparmaqdır. Buradakı məruzələr, çıxışlar yazıya alınır. Artıq birinci və ikinci məclislərlə bağlı hesabatlar «Xəzər Xəbər»

jurnalında dərc olunub. Mən təklif edirəm ki, 8–10 məclisdən sonra onların materialları kitab halında nəşr olunsun. Bu, o qədər də çətin iş deyil. Əsas odur ki, məclislər davam etsin, müzakirəyə maraqlı mövzular çıxarılsın.

Bugünkü mövzumuz Qədim Ərəb dünyasında türklərlə bağlıdır. Bu, çox geniş mövzudur. Amma biz orta əsrlərin əvvəllərinə, islamın ilk üç əsri ərzində baş verən tarixi hadisələrə nəzər salmaq istəyirik. Maraqlıdır ki, bu gün təxminən min il əvvəl baş vermiş bəzi əhvalatlar təkrar olunur. Min il əvvəl də Bağdadda sünni və şiə qarşıdurması qanlı toqquşmalarla müşahidə olunurdu. Bu gün də eyni hadisələr cərəyan edir. Sadəcə olaraq səbəblər müxtəlifdir, dövr başqadır.

Müzakirə edəcəyimiz «Ərəb dünyasında türklər» mövzusunun həm ümumi konturlarını cızmaq, həm də daha konkret olaraq bir şəxsin üzərində dayanmaq istəyirik. Onun adı hamınıza yaxşı tanışdır: Afşin. Müzakirə edəcəyimiz mövzu da belə adlanır: «Orta əsrlər ərəb dünyasında türklər. Afşin».

Məlumdur ki, qədimdə, xüsusən də orta əsrlərdə xalqlar elliklə köçürdülər. Tarixin bizə nisbətən yaxşı məlum olan son 2-3 min ilində bu köçün istiqaməti daha çox Şərqdən Qərbə doğru olub. Əksər hallarda bu köç dinc yolla olmayıb, həm tayfalararası, etnik cəhətdən eyni və ya yaxın olanlar arasında savaşlar olub, həm də yol boyu rast gəldikləri xalqlarla. Çində hunnu, qərbdə hun adlanan xalqlar Çinin şimalından başlanan köç nəticəsində 4-cü əsrdə Mərkəzi Avropaya çatdılar. Onlar arada Qafqaza girir, Yaxın Şərqə reydlər edirdilər.

Tarixdə Azərbaycan neft-qazı haqqında bildiyimiz ilk məlumat da hunlarla bağlıdır. Bizans tarixçisi Prisk hunların dilindən cənuba yürüş yolunun təsvirini verir: Meotiya (Azov) bataqlığından dağları (Qafqazı) aşaraq Midiyaya endilər, orada qarətlə məşğul oldular. Geri dönərkən, düşmənin həmləsinə məruz qalmamaq üçün başqa yolla – dənizkənarı qayalardan alov qalxan yerlə öz yerlərinə (Skifiyaya) qayıtdılar. Prisk Attilanın düşərgəsində 448-ci ildə Roma səfiri Romul ilə



rastlaşmışdı. Prisk yuxarıdakı məlumatı Romulun sözlərinə əsasən yazmışdı. Romul isə bunu Romaya ittifaq qurmaq üçün gələn hun elçilərindən eşitmişdi.

Hunların müxtəlif dillərdə danışan xalqlardan ibarət olduğu, lakin böyük qisminin də türkdilli olduğu tarix elmində qəbul edilmiş kimi görünür. Onların imperiyası dağılandan sonra meydana çıxan xalqların, böyük qismi o cümlədən saburlar, daha sonra xəzərlər tam türkdilli idilər. Türk tayfaları Qafqaza və Yaxın Şərqə hücumlar edir, Bizans və İran ilə gah ittifaqda olur, gah da savaşırdılar. Xəzərlərlə ərəblər məhz Qafqazda üz-üzə gəldilər, yüz ildən artıq müharibə etdilər. Yəni Yaxın Şərqə daxil olan bir Türk dalğası Qafqazdan gəlirdi. Amma daha böyük dalğa, şübhəsiz ki, Orta Asiya və Xorasan üzərindən gəlirdi. Bu, əvvəlcə Göytürklər və onlardan sonrakı türklər idi. Daha sonra isə hər biri iki yüz ildən artıq tarixi olan böyük dövlətlər qurmuş Qaraxanlılar (Xaqaniyyə Türkləri) və Qəznəvilər müsəlmanlarla birbaşa təmasa girdilər. Türklərin islamı qəbul etmələri bu dövrə təsadüf edir. Onlardan sonra isə Səlcuqlar, Türkmənlər (Qaraqoyunlu və Ağqoyunlular) gəlir ki, biz, müəyyən mənada,

onların varisləriyik. Bu köçün nəticəsidir ki, azərbaycanlılar 18-ci əsrə qədər yaxşı şairlərini, sərkərdələrini, tarixdə izi qalan intellektuallarını axtaranda onları Anadoluda, İraqda, Suriyada, İranda və s. yerlərdə tapırlar. Bu, həmin köçlərin və dövlətqurmaların nəticəsidir. Türklərin İslamı qəbul etmələri onların ərəb dünyasına nüfuz etməsinə, bir qədər sonra isə İslam dünyasının bayraqdarı rolunu almalarına səbəb oldu.

Bununla da mən giriş sözümü dayandırıb, sözü məruzəçilərə vermək istəyirəm.

### Qədim və orta əsrlərdə türk-ərəb münasibətləri normal məcrada cərəyan etmişdir

**Nərgiz Axundova,** tarix elmləri namizədi:

– Ərəb-türk münasibətlərtinin tarixi, məşhur orta əsrlər tarixçisi Təbəriyə inansaq, bizim tədqiq etdiyimiz dövrdən - Xilafət dövründən ən azı 1200 il əvvələ gedib çıxır. Onun məşhur «Tarix ər-rusul va-l-muluk» əsərində Yəmən hökmdarlarından birinin Azərbaycana (təbiidir ki, cənuba) gəlməsi, burada türklərlə rastlaşması, vuruşması və çoxlu türk əsiri ilə geriyə qayıtması haqqında məlumat vardır. Müəllif Raid adlanan həmin hökmdarın Çinə, Tibetə hücumları (oraya yollar türk torpaqlarından keçirdi) haqqında da məlumatlar vermişdir. Bu məlumatlar nə qədər doğrudur və ya yanlışdır, - mübahisə yarada bilər. Ancaq hər bir halda bu məlumatı yazanlar 1000-1200 il bundan öncə yaşamışlar.

VII əsrin 30-cu illərindən, yəni islamın meydana gəlməsi dövründən türklərin bu dini qəbul etməyə başlaması artıq tarixi reallıqdır. Müsəlman dünyası ilə türklərin münasibətlərinin intensivləşməsinə gəlincə, o, 642-ci il Nihavənd döyüşü dövrünə düşür ki, həmin tarixdən sonra ərəb-müsəlmanların güclü hücumları nəticəsində Sasani imperiyası dağıldı. Bundan əvvəlki illərdə də türk-ərəb münasibətlərinin normal məcrada cərəyan etdiyini söyləmək olar. Ən azı ona görə ki, orta əsrlər mənbələrində Məhəmməd peyğəmbərin türklərlə əlaqələrinə dəlalət edən bir



neçə məqamlara toxunulur. Heç şübhə yoxdur ki, Məkkə kimi zamanın böyük ticarət mərkəzinin sakini olan Məhəmməd peyğəmbər, iranlılar, bizanslılar və türklər haqqında lazımi məlumatlara malik idi. Ərəb karvanları türk ərazilərindən keçir, türklər isə öz növbələrində Böyük İpək Yolu ilə ərəb torpaqlarına gəlirdilər. Bu baxımdan hətta onların bir-birlərinin dilini bilmək səviyyəsinə də gəlib çıxa bilməsini ehtimal etmək olar. Təsadüfi deyildir ki, bəzi dilçilər Quranda türk sözlərinin varlığı haqqında mülahizələr irəli sürürlər.

### Xilafətin tarixində türklər böyük rol oynamışlar

Xilafətin yaranması ilə mövcud əlaqələr daha da artmağa başlayır, qonşu torpaqların işğalı səbəbindən isə ərəblərin Ərəbistan yarımadasından kütləvi çıxışı, yəni işğal olunmuş torpaqlara axını münasibətləri yeni inkişaf mərhələsinə qaldırır.

«Xülafə ər-Rəşidin» və Əməvilər sülaləsinin hakimiyyəti dövründə, ərəb işğalları zamanı

müəyyən şərtlər zəminində sürətlənən, metamorfozaya uğrayan və hərbi qarşıdurmadan hərbi əməkdaşlığa qədər dəyişən ərəb-türk münasibətləri ona gətirib çıxardı ki, türklərdən artıq bir əsgəri qüvvə kimi həm Mərkəzi Asiyada, həm də Xilafətin mərkəzində və əyalətlərində istifadə edilməyə başlanıldı. Yeni ərazilərin tutulmasında, ərəblərə qarşı yönəlmiş üsyanların basdırılmasında türklərin döyüşçü keyfiyyətləri və ərəblərin buna ehtiyacı özünü daha çox göstərdi. Türklərin islama, təkallahlığa olan meyilləri, yeni dini kütləvi şəkildə qəbul etmələri də onların müsəlman cəmiyyətinə inteqrasiyasına böyük təkan vermişdi. Ancaq ərəblərin hakimiyyətindən, onların başqa etnik qruplara olan münasibətindən narazı olan türklər öz haqları uğrunda mübarizə də aparırdılar. Qeyd edək ki, həmin qüvvələr Əməvilər (661-750) sülaləsinin devrilməsində mühüm rol oynadılar.

750-ci ildə Abbasilər (750-1258) sülaləsinin hakimiyyətə gəlməsi Xilafətin, islamın və dövlətin tərkibinə daxil olan ölkə və xalqların taleyi üçün çox önəmli nəticələrə gətirdi. Yeni xəlifələr onları hakimiyyətə gəlməkdə dəstəkləyən qüvvələri taxt-taca yaxınlaşdırmağa başladılar. Xilfafətin hərbi və siyasi strukturunda, eləcə də, həmin strukturlarda təmsil olunan qüvvələrin etnik tərkibində köklü dəyişikliklər baş verdi. Abbasi xəlifələri özlərini, sülalənin maraqlarını himayə etmək üçün şəxsi qvardiyanın təşkilinə böyük əhəmiyyət verdilər. Qarşıya qoyulan məqsədlərə və güdülən maraqlara nail olmaq üçün ən müvafiq qüvvə kimi türklərə üz tutdular və onlar müsəlman dövlətində yüksək hərbi vəzifələrə çatdılar.

İlk xəlifələr dövründən paytaxt Bağdadda və əyalət idarəçiliyində müxtəlif türk sərkərdələrinin fəaliyyəti haqqında mənbələrdə geniş və zəngin məlumatlar var. Onu da xüsusi olaraq vurğulamaq istərdik ki, həmin proses əsasən xəlifə Harun ər-Rəşid dövründən (786-809) sürətləndi. Onun ölümündən sonra isə xilafət vətəndaş müharibəsinin baş verməsi ilə və nəhayətdə əl-Məmunun xilafətdə taxt-taca yiyələnməsindən sonra Bağdadda yeni türk hissələrinin yaranmasını öz siyasətinin əsas



məqamına çevirməsi ilə xarakterikdir. Abbasilər xilafəti tarixində ilk dəfə türk komandanları xəlifə ilə birgə hərbi səfərlərə çıxır, üsyanların dəf edilməsində onların yanında olur, müstəqil hərəkət etməyə icazə alırdılar. Xilafətin gələcək tarixində böyük rol oynamış Afşin, Aşnas, Buğa əl-Kəbir və s. kimi şəxsiyyətlər məhz bu dövrdə orduda üzə çıxdılar.

**Afşinin məşhurluğunun səbəblərindən birincisi Babək üzərində qələbədir**

Xilafətdə köklü yeniliklər aparmağa cəhd göstərən əl-Mütəsim (833-842) yeni adamlara ehtiyac duyurdu və onları türklərin timsalında tapırdı. Qeyd edək ki, türklər də xəlifənin istəklərinə adekvat reaksiya verirdilər. Qaynaqlarda kifayət qədər məlumat vardır ki, türk ordusu əl-Mütəsimə böyük etimad göstərdi və hətta yeni paytaxt Samarra şəhərinin salınmasında yaxından iştirak etdi. Bu qarşılıqlı etimad və dostluq əlaqələri zəminində türklərin maddi təminatları və başqa imtiyazları artırıldı və onların nüfuzu yüksələn xarakter aldı.

Əl-Mütəsim hakimiyyətinin son illərində ən yadda qalan siyasi hadisə onun görkəmli türk komandanı, bir sıra üsyanları, o cümlədən iyirmi il davam edən xürrəmilər hərəkatını məğlub etmiş Afşinin aradan götürülməsi oldu. Afşinin tarixdə məşhur olmasının bir sıra səbəbləri var və onlardan ən birincisi Babək üzərində qələbədir. Digərləri isə xürrəmilərin Xilafətdə ən qorxulu və geniş miqyaslı üsyan olması və Afşinin xidmətləri müqabilində onun edam edilməsidir.

Heydər ibn Kavus, Usruşananın əyan nəslinin nümayəndəsi olduğundan onun adı mənbələrdə «əl-Afşin» kimi göstərilir. «Afşin» islamaqədərki Mərkəzi Asiyada əyalət hökmdarının tituludur. Mənbələr Heydər ibn Kavusun – Afşinin ailəsinin Usruşanada hakimiyyətə nə vaxt gəlməsi haqqında dəqiq məlumatlar vermir. Nəslin ilk nümayəndəsi haqqında ən erkən məlumat Xorasan valisi və türkeşlərin xaqanı Su-lu arasında olan toqquşma ilə əlaqədar qeyd olunur. Söhbət xaqanın tərəfdarı olan Afşinin ulu babası Qara Buqra haqqında gedir. Ehtimal etmək olar ki, Qara Buqra həmin ərəfədə Usruşananı ələ keçirmişdi. Qara Buqranın oğlu Xan Qara isə 794/795-ci illərdə Xorasan valisi Fazl əl-Bərməki ilə toqquşmalarda özünü göstərimiş, bundan sonra isə nəsil haqqında məlumatlar kəsilmişdir.

Qara Buqra ailəsinin növbəti dəfə siyasi meydana çıxması əl-Mamun dövrünə təsadüf edir. Xəlifə, Afşinin atası Kavusun tabeçiliyində olan Usruşanaya və Fərqanəyə iri qoşun birlikləri göndərir. Kavus başa düşür ki, o, bu ordunun öhdəsindən gələ bilməyəcək və xəlifənin vəzirinə məktub yazaraq, vaxtında mərkəzə vergi göndərmək vədi verir, ancaq sözünə əməl etmir. Əl-Mamunla Kavusun münasibətləri korlanır və bu zaman sonuncunun ailəsində bir sıra hadisələr baş verir. Elə həmin dövrdə də və həmin hadisələrdən birinin fəal iştirakçısı kimi Afşin tarix səhnəsinə çıxır. Belə ki, o, atasının yaxın adamlarının birisini qətlə yetirir və onun qəzəbindən qorxaraq ölkəsindən qaçır. Afşinin son mənzili Bağdad olur və burada o, islamı qəbul edir. Usruşananı ələ keçirmək istəyən xəlifə üçün bu çox əlverişli bir hal kimi qəbul edilir və Afşin ailəsinə qarşı olan hərbi səfərdə iştirak etməyə razılıq verir. Ərəb orduları qalib gəlir və həbs edilən Kavus mərkəzə – Bağdada gətirilir və o da islamı qəbul edir. Kavusun ölümündən sonra isə «Afşin» titulu Heydərə verilir. Təbəriyə istinad etsək, anlaşılır ki, Afşin təqribən 821/822-ci illərdə Bağdada gəlmişdir. Usruşananın buna əsasən 822/823-cü illərdə fəth edildiyini söyləmək olar.



**Mənbələr Afşinin etnik mənşəyinin türk olduğunu təsdiqləyir**

Afşinin etnik mənşəyi haqqında tədqiqatçılar arasında müəyyən fikir müxtəlifliyi var. Bəzi tədqiqatçılar atasının adının Kavus olmasına istinadən onun fars kökənli olduğunu deyirlər. Ancaq İran mədəniyyətinin güclü təsiri hiss olunan regionda bu, adi bir haldır. Onu da əlavə edək ki, islamın qəbulundan əvvəl Afşin və atası zərdüşti idilər. Özündə farsları və türkləri birləşdirən yerli cəmiyyətdə fars və ərəb adları uşaqlara daim verilirdi. Afşin, misal üçün, ərəb mənşəli Heydər adını daşıyırdı. Lakin babasının adı Qaraxan idi, yaxın qohumu Menqü-cür kimi tanınırdı və bütün bunlar onun türklüyünə dəlalət edir. Afşinin Xilafətdə fəaliyyəti də türk hərbi dəstələrinin təşkili və artması ilə bağlı olmuşdur. Bu da maraqlıdır ki, Afşinin hərbi vəzifələri ona qarşı başqa türk sərkərdələrinin qısqanclığına səbəb olurdu. Elə bu səbəbdən də onlar bir qədər sonralar Afşinlə bağlı baş verən faciəyə müdaxilə etmədilər və seyirçi qaldılar.

Afşinin başqa bir düşməni isə Xorasan valisi Abdulla ibn Tahir idi. Afşinin Babək üzərində parlaq qələbəsindən sonra onların ziddiyyətləri daha da kəskinləşdi. Xüsusilə də Abdullaya məlum olanda ki, xürrəmilərlə müharibədə əldə edilən qənimət Xorasan ərazilərindən mərkəzə yox, Usruşanaya göndərilir, o, dərhal bunu xəlifəyə çatdırdı. O biri tərəfdən, Afşin, Babək

üsyanından sonra öz ata yurdu Usruşana əyalətlərindən olan Xoraşana xüsusi diqqət yetirməyə başladı. Bundan xəbər tutan Abdulla 838/39-cu ildə Xorasanda onlara qarşı üsyan etmiş Təbəristan valisi Məzyar ibn Qarinlə Afşinin əlaqələri olması haqqında xəlifəyə məlumat verdi. Bununla da vəziyyəti gərginləşdirdi. Xəlifənin Afşinə olan münasibəti mənfi məcrada dəyişdi. Xəlifə – Afşin qarşıdurması son həddə çatdı. Müxtəlif dini və siyasi qüvvələrin rəhbərləri isə bu qarşıdurmada Afşinə qarşı çıxdılar və sarayda hakim olan türk təsirindən qurtulma vasitəsi kimi onun ittiham olunmasında fəallıq göstərdilər.

## Afşinə qarşı başlanan təzyiqlərin səbəbi və ya xəlifəyə qarşı sui-qəsd

Bütün banlarla yanaşı onu da qeyd etmək istərdik ki, mənbələr Afşinə qarşı başlanan təzyiqlərin başlıca səbəbini onun xəlifəyə qarşı sui-qəsd təşkil etməsində görürlər və hətta bunun bir neçə variantını da göstərirlər. Bunu bilən xəlifə Afşini öz sarayına dəvət edir və o, burada həbs olunur. Sonra üzərində məhkəmə qurulur və onu Soqd müsəlmanlarına təzyiqlərdə, öz sarayında çoxallahlıq haqqında ədəbiyyat saxlamaqda, xain Məzyar ibn Qarinlə əlaqədə, Babəklə bağlı məsələlərdə ittiham edirlər. Afşin bütün ittihamları inkar etdi və bundan sonra o, xüsusi məhbəsə yerləşdirildi. Göründüyü kimi, Afşin əsasən islama xəyanətdə suçlanırdı. Mənbələrin məlumatlarını təhlil edəndə bu məhkəmənin yalnız Afşini cəzalandırmaq üçün qurulmadığı aydın olur. Aydın olur ki, bu məhkəmənin təşkili kökləri daha dərində və gizlində olan səbəblərdən və məqsədlərdən irəli gəlmişdir. Bunu məhkəmə prosesinin gedişi və nəticələri də dolayısı ilə təsdiqləyir. Bu baxımdan məhkəmənin sonucları belə dəyərləndirilə bilər.

Birincisi, Mütəsimdən narazı qüvvələr onun öz yaxın adamına olan etimadını sarsıda bildilər.

İkincisi, taxt-tacın türk əhatəsi gözdən salınırdı.

Üçüncüsü, ərəblər sarayda mövqelərini qaytarmağa çalışırdı.

Dördüncüsü, Afşini dini xəyanətdə ittiham edən din xadimləri müsəlman cəmiyyətində güclənirdi.

Afşinin məhkəməsinin dərin səbəbləri isə ondan qaynaqlanırdı ki, Xilafətin sosial-iqtisadi, siyasi, konfessional həyat sahələrində gözə görünən səviyyədə dəyişikliklər gedirdi və onlar bir sıra qüvvələrin maraqlarına toxunurdu. Həmin dəyişiklər prosesinə müəyyən baxımlardan müdaxilə etmək və bu müdaxiləni əsaslandırmaq üçün o qüvvələrə dəlillər lazım olurdu. Hadisələrin sonrakı inkişafı göstərdi ki, qeyri-ərəb Afşinin hekayəti haqqında danışılan dövrün şərtləri baxımından maraqlı qüvvələrin məqsəd və istəklərinə xidmət etdi.

## Afşininin ölümü türk nüfuzunu sarsıtmadı

Belə bir məqam da olduqca diqqəti çəkməkdədir. Mənbələrin məlumatından görünür ki, Afşin məhbəsdə xeyli müddət qalmışdır. Mənbələr, bir qayda olaraq, həmin müddətin təxminən bir ilə bərabər olmasını göstərir. Mənbələrdə belə bir məlumat da var ki, həmin dövrdə Mütəsim Afşinə oğlu vasitəsilə yemək və meyvə göndərmiş, Afşin isə xəlifəyə öz fikirlərini və düşüncələrini çatdırmışdı. Lakin onun müraciətləri xəlifəni yumşaltmamış və Afşin 841-ci ilin yazında məhbəsdə ölmüşdür. Mənbələr qeyd edir ki, onun ölümündən sonra evindən bütlər, müxtəlif kitablar tapılmışdır. Onlar da əsas vermişdir ki, Afşinin meyidi çarmıxa çəkilsin, yandırılsın və sonra külü Dəclə çayına tökülsün.

Sonda onu da qeyd edək ki, Afşinə qarşı irəli sürülən ittihamlarla bağlı müəmmalı məqamlar da az deyildir. Məsələn, Afşinin evində axtarış hansı səbəbdən yalnız onun ölümündən sonra aparılmışdır? Yaxud, bir sözü ilə Afşini məhv və ya əvf edə biləcək xəlifə nədən onu uzun müddət həbsdə saxlayıb, hətta onu yaddan çıxarmır, məhbəsə ərzaq bağlaması da göndərir?

Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Afşinin müəmmalı şəkildə cəzalandırılması, görünür, daha çox siyasi məqsədlərdən

qaynaqlanmışdır və Abbasilər dövründə və tərəfindən bir sıra imtiyazlardan məhrum edilən ərəb nəsli elitasının türklərə qarşı gündən-günə artmaqda olan kin və qəzəbini xəlifənin bir qədər yumşaltmaq istəyi ilə bağlı olmuşdur. Çünki onlar həmin dövrdə xeyli dərəcədə güclənmiş türk nüfuzunu sarsıtmaq və qırmaq üçün Xilafət və hakim sülalə qarşısında böyük xidmətləri ilə məşhur olan Afşini konkret hədəf kimi seçmişdilər. Onlar düşünürdülər ki, ancaq bu yolla türk ordusu və xəlifələr arasında nifaq salmaq olar. Bu plan baş tutmadı. Doğrudur, Afşin məhv edildi, lakin bu, türklərin Xilafət ordusuna cəlb edilməsi prosesini dayandırmadı. Əksinə, proses daha da gücləndi.

Ancaq Afşinlə bağlı baş verən hadisələrin nəticələri deyilənlərlə bitmədi və daha böyük fəsadlara gətirdi. Bu baxımdan az sonra türklər və xəlifələr arasında başlayan qanlı toqquşmalar məhz xəlifə Mütəsim dövründə ərəblər tərəfindən səpilən nifaqların bəhrəsi kimi dəyərləndirilə bilər.

Sonda qeyd edək ki, Afşinin ölümü Xilafətdə qüvvələr nisbətinin ərəblərin lehinə dəyişməsinə təsir göstərmədi, əksinə, türk ünsürü Xilafətin siyasi və hərbi həyatında mövqelərini saxladı və möhkəmləndirə bildi.

***

Digər məruzəçi – tarix elmləri namizədi Fərda Əsədov da mövzu ilə bağlı öz mülahizələrini bildirdi.

## İslama qədər və İslamın ilkin dövründə ərəb sözü etnik məna daşımamışdır

**Fərda Əsədov:**

– Mən çalışacağam ki, mövzu ilə bağlı öz mülahizələrimi çatdırım. Nərgiz xanımın dediklərini bir qədər ümumiləşdirmək və göstərmək istəyirəm ki, türklərin Yaxın Şərqə və ərəb cəmiyyətinə gəlişinin mərhələləri və dalğaları necə olub və bunun xüsusiyyəti nədən ibarətdir.

Birincisi, onu deyim ki, bir çox xalqların tarixlərində müəyyən qədər oxşarlıqlar var.



«Türk» sözünün istifadə olunması qaydaları da indiki qaydalarla bir tutula bilməz. «Türk» sözünün hansısa bir əhali qrupuna mənsub edilməsi o demək deyil ki, bir başqa adda tanınan qurumun heç bir mənşəyi olmamışdır. Bu, hamıya məlum məsələdir. Mən bu terminlərin arasında fərqi onda görürəm ki, o zamanlar insanları etnik mənsubiyyət deyil, çox zaman dini və həyat tərzi mənsubiyyəti maraqlandırırdı.

Qeyd etmək istəyirəm ki, İslama qədər və İslamın ilkin dövründə «ərəb» sözü etnik məna daşımamışdır. O vaxtlar köçəri – bədəvi həyat tərzi keçirən insanları belə adlandırırdılar. Bədəvi mənasında işlənən «arabi» sözünün xüsusi tələffüz forması var.

Mən İraqda olarkən bunun fonetik cəhətdən fərqinə varmadan oturaq həyat tərzi keçirən ərəbə müraciətdə «arabi» sözünü bu formada tələffüz edəndə o, mənə dedi ki, mən «aarabi» yox, «arabiyəm», yəni sən məni bədəvi adlandırırsan?

Bu halı eyni ilə türklərə də aid etmək olar. Yəni o zamanlar türk deyiləndə əslində köçəri həyat keçirən qəbilələri nəzərdə tuturdular. Ərəblərin onlarla toqquşması əlbəttə ki, çox sonralar baş verir. İlk dövrlərdə isə buna çox az diqqət yetirilir. Yəqin ki, tədricən Xorasan

əyalətindən və Mərkəzi Asiyadan keçmiş türk sülalələri ilə rastlaşırlar. Biz onların şəxs adlarının türk adları olması baxımından müəyyən edə bilərik ki, həmin sülalə türklərdir və öz tərəfdaşları ilə fars mənşəli dövlətlərə başçılıq edirdilər. Burada nizamlı hərbi sistemin yaranmasında müəyyən qədər yardımçı olurdular. Bu tarixi fenomen, mən deyərdim ki, müəyyən qədər slavyanların tarixinə oxşarlıq nümayiş etdirir.

Ərəblər tutduqları əraziyə daxil olarkən bir çox yeni sülalələrlə rastlaşırdılar ki, onlardan bəziləri türk mənşəli ola bilərdi və olurdu da. Bəziləri isə fars mənşəli idi.

Afşinin məsələsinə gəldikdə, mən bir cəhətə indiyə kimi diqqət yetirməmişdim. Heç şübhə yoxdur ki, Afşin əyalət dövlətçiliyinin uzanmasında maraqlı olan şəxs idi. Təsadüfi deyil ki, Babəklə nə isə bir məsləhətləşmə baş vermişdir. Sonrakı dövrlər sübut edir ki, onların arasında bir sövdələşmə olmuşdur. Mən bu məsələni araşdıran adamlarla söhbət edəndə onlardan da dəqiq cavab ala bilməmişəm ki, Afşinin öldürülməsində məqsəd nə idi? Çünki tarixçilərin də ümumi fikri belədir ki, Afşin heç də xilafətin mərkəzində hakimiyyəti ələ keçirmək fikrində deyildi. Bu heç cür mümkün olan şey deyildi...

***

Məruzələr dinlənildikdən sonra mövzu ətrafında müzakirələr başlandı.

## Ərəb dünyası ilə qoşa bir Türk dünyası görünür

**Professor Camal Mustafayev:**

– Məruzəçilərə öz minnətdarlığımı bildirirəm.

Məlumdur ki, Türk Tarix Qurumu tarixin hər hansı qatında türklər haqqında nə varsa, meydana çıxararaq cild-cild kitablar nəşr etdirmişdir. Onların bəzilərinə nəzər salmışam.

Mənim Nərgiz xanıma sualım var: Birincisi, bu mövzuya türk tarixşünaslığında münasibət necədir?



İkincisi, mənim sahəm fəlsəfə olduğuna görə ideoloji aspektə toxunmaq istəyirəm. Bilirsiniz ki, babəkizm və Babək hərəkatı özünün ideologiyasına malik idi: xürrəmilik. Bu, həqiqi mənada həm o zaman İslam dünyasına güclü təsir göstərdi, həm də Azərbaycanda xüsusi vətəndaşlıq hüququ qazandı. Bu gerçəklik, yəni Azərbaycan mühitində xürrəmiliyin uzun müddət təfəkkür tərzinə, siyasi meyillərə təsiri aydın məsələdir. Lap Cəfər Cabbarlıya qədər gəlib çıxa bilərik. Amma mən bilmək istərdim ki, bu xürrəmiliyin əsas niyyəti nədən ibarətdir? Niyyət nədir? Düzdür, bayaq deyildiyi kimi, bu, hərəkat qüvvəsidir. Siyasi hərəkata, ideoloji hərəkata, mənəviyyat dünyasına təsir edəndir. Ancaq mən istərdim ki, niyyətin mahiyyəti həm tarixi, həm də nəzəri baxımdan açılsın.

Sonra bu hərəkatın özündə anlayışları nə qədər dəqiq ifadə edirik?

Ərəb dünyası dediniz, bunu qəbul elədik. Amma sizin təqdimatınızda ərəb dünyası ilə qoşa bir Türk dünyası gördük. Bu necə ola bilər ki, Türk dünyası Ərəb dünyasının fonunda getsin. Siyasi hərəkatda bu qədər qüvvə ola-ola Türk dünyası niyə Ərəb dünyasının kölgəsində qalsın? Axı artıq əl-Fərabi dövründə – IX əsrdə İslam dünyasına təşəkkül baxımından bayraq tutan, istiqamət verən türklər vardı. Əl-Fərabi də bir türk mütəfəkkiri kimi Şərqin böyük filosofu idi. Fəlsəfə aləmində Avropada və Şərqdə Aristoteldən sonra ikinci müəllim hesab olunurdu.

Bəs türkün ərəb mədəniyyətində iştirakı niyə kölgədə qalır?

Bu məsələlərlə bağlı qısa arayış verməyinizi xahiş edirəm.

**Xürrəmilik əsasən İslama qarşı yönəldilmiş bir hərəkatdır**

**Nərgiz Axundova:**

–Tamamilə doğru deyirsiniz. Türklərin İslama gəlməsi və müsəlman cəmiyyətində rolu ilə bağlı çox geniş tədqiqatlar var.

Qeyd edim ki, türk tədqiqatçılarını daha çox maraqlandıran islamlaşma prosesidir. Yəni türkləri hansı səbəblər İslama gətirib? Hansı səbəblərdən müsəlman dövlətlərinin maraqlarına xidmət ediblər?

Belə bir fikir var ki, İslamdan yazan hər bir müsəlman obyektiv ola bilməz. Eyni zamanda İslamdan yazan hər bir xristian da obyektiv ola bilməz. Yəqin ki, türklər də öz tarixlərinin müsəlmanlaşma dövrünü yazanda bir qədər ifrata varırlar. Müəyyən faktları öz tarixi mənafeləri baxımından təqdim edirlər. Biz bu araşdırmaları aparanda müəyyən bir obyektiv baxış ortaya qoymaq istədik.

Mən deyərdim ki, xürrəmilik əsasən, İslama qarşı yönəldilmiş bir hərəkatdır. İdeoloji və fəlsəfi aspektləri kənara qoyub, bizi maraqlandıran mövzu tərkibində demək olar ki, xürrəmilər müəyyən mənada ərəblərin nüfuzundan qurtarmaq, özlərinin etiqadları əsasında bir dövlət strukturu altında yaşamaq istəyirdilər. Siyasi cərəyan kimi isə, mən belə düşünürəm ki, İslama qarşı yönəlmiş cərəyan idi. Xürrəmilik müsəlman dünyası üçün böyük təhlükə idi. Bu təhlükəni aradan qaldırmaq üçün hərbi və digər vasitələrdən istifadə olunurdu.

**Müsəlman mədəniyyəti mühitindən türk mədəniyyətini ayırmaq olmaz**

Türk fəlsəfəsinin müsəlman dünyasına təsiri ilə bağlı sualı isə **Fərda Əsədov** belə cavablandırdı:

–Mən ərəb müsəlman dünyasını müəyyən qədər tədqiq edən bir adam kimi qeyd etməliyəm ki, anlayışlardan danışanda etnik mədəniyyəti o dövrə şamil etmək olmaz. Qeyd etdiyimiz müsəlman mədəniyyəti mühitində türk mədəniyyətini ərəb mədəniyyətindən, fars mədəniyyətindən, bütövlükdə İslam mədəniyyətindən ayırmaq məqsədəuyğun sayılmamalıdır.

**Camal Mustafayev:**

–Söhbət ondan getmir. Türkün ərəb mədəniyyətinə, ərəb dilli fəlsəfəyə xidmətindən, təsirindən, rolundan gedir. Əlbəttə, mən də başa düşürəm ki, İslam dünyasında parçalanmaya heç kəs meyilli deyil.

**Nərgiz Axundova:**

–Mən belə düşünürəm ki, İslam mədəniyyəti onunla maraqlıdır ki, İslamı qəbul etmiş bütün xalqların mədəniyyətindən qaynaqlanaraq vahid bir müsəlman mədəniyyəti – İslam mədəniyyəti meydana çıxır. İslamı qəbul edən hər bir xalq öz düşüncəsinin, etnik mənsubiyyətinin məhsulu olan fikirləri gətirməklə bu mədəniyyəti daha da zənginləşdirir.

**Camal Mustafayev:**

–Belə dəqiqləşdirək: İslam mədəniyyəti, ya da İslam düşüncəsi anlamı təkcə ərəb düşüncəsi deyil, İslamın əhatə etdiyi millətlərin birgə yaratdığı mədəniyyət və düşüncə tərzidir.

**Biz məhz İslamın ilk əsrlərinə daha çox fikir veririk**

**Hamlet İsaxanlı:**

–Mən Camal müəllimin qaldırdığı çox maraqlı məsələ ilə bağlı bir neçə söz demək istəyirəm. Birincisi, biz çalışdıq ki, bu gün müzakirə etdiyimiz məsələni bir qədər dar çərçivədə, konkret qoyaq ki, bir az irəli gedə bilək. Burada ərəb dünyasına türklərin gəlişi və idarəetmədə və orduda onların oynadığı rol barədə daha çox söhbət elədik. Çünki mövzumuz «Orta əsrlərdə ərəb dünyasında türklər. Afşin» idi. Afşin məlumdur ki, mütaliə ilə də məşğul olub, başqa intellektual keyfiyyətlərə də malik olub, amma o, hər halda əsasən sərkərdə kimi

tanınmışdı. Bu bir səbəbdir ki, biz bugünkü məclisimizdə mədəniyyət tarixinə baş vurmuruq. İkinci səbəb odur ki, biz məhz İslamın ilk əsrlərinə daha çox fikir veririk. Məlumdur ki, hər halda əl-Fərabinin və digər orta Asiya xalqlarından olanların İslam mədəniyyətinə təsiri İslamın ilk əsrlərində yox, bir az sonra yaranıb. X əsrdən başlayaraq özünü çox güclü göstərib (əvvəlki mütəfəkkirləri də qeyd etməklə). Nəhayət, üçüncü səbəb odur ki, biz bu məsələləri ayrıca geniş müzakirə edəcəyik. Bu barədə mövzularımız olacaq.

Müasir türk tarixçiləri də deyirlər ki, türklər həmişə ətraflarında olan xalqların dininə biganə qalmayıblar. Yəni özlərinə məxsus əvvəlki dinlərə, inanclara maraq göstərsələr də, digər dinləri də çox rahat qəbul edirdilər. Məsələn, uyğurların, ətraflarında olan buddizm, manixeizm, xristianlıq və s. aid hər cür dini kitabları tərcümə eləyib öz içlərində yaydıqları, xəzərlərin ən azı yüksək təbəqəsinin iudaizmi qəbul etdikləri məlumdur. Məhz bu səbəbə görə də mümkündür ki, xəzərlər İslam dünyasında Qaraxanlılar, Qəznəvilər və Səlcuqlar kimi böyük rol oynaya bilmədilər. Onlar daha çox Bizansa üz tutdular. Məsələn, Bizanslarda imperator və sərkərdələr tapa bilərsiniz ki, onların anası türkdür. Amma bir şey də məlumdur ki, türklər Yaxın Şərqə gələndə ilk növbədə fars dünyası ilə qarşılaşdılar. Əvvəlcə fars mədəniyyətindən çox təsirləndilər. O dövrdə Mahmud Kaşğarinin və Yusif Xas Hacibin fundamental əsərləri meydana çıxsa da, sonradan bu türkdilli yaradıcılıq kəsildi, fars ədəbiyyatının təsiri altına düşdülər. Mahmud Kaşğari «Divani-lüğəti-it-türk» əsərində deyir ki, «kişi papaqsız olmadığı kimi, türk də farssız ola bilməz». Bu, çox maraqlı mövzudur və biz gələcək toplantılarda bu mövzuya toxunacağıq.

* * *

Maraqlı fikir mübadiləsi və elmi diskussiya şəraitində keçən tədbirdə mütəxəssislərdən Solmaz Rüstəmova-Tohidi, Şahin Mustafayev, Mirheydər Mirzəyev, Sevda Süleymanova, Esmiralda Ağayeva və başqaları mövzu ilə bağlı öz mülahizələrini bildirdilər. Məruzəçilər iştirakçıları maraqlandıran sualları da cavablandırdılar.

**Materialı hazırladılar:**
**Knyaz ASLAN,**
**Musa NƏBİOĞLU**

